HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 OKTYABR 2019-CU İL/ №019 (99)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



QIZLAR GÜNÜ

3



DƏYƏRİ BİLİNMƏYƏN NEMƏT

5



XOŞBƏXTLİYİNƏ QOVUŞMUŞ İTLƏRİN NAĞILI

7



QURBAN SİNDROMU

## GİORGİ QAXARİA İLHAM ƏLİYEVLƏ GÖRÜŞÜB



"Gürcüstan və Azərbaycan arasındakı əlaqələr hər zaman dost əlaqələridir. Ölkələr arasında həll olunmayan məsələlər yoxdur və onlar hər zaman bütün məsələlərdən çıxış yolu tapa bilərlər". Bunu baş nazir Giorgi Qaxaria oktyabrın 9-u Azərbaycan prezidenti İlham Əliyevlə görüşü zamanı bildirib.

Baş nazir qeyd edib ki, Gürcüstan və Azərbaycan ən yaxın dost və qardaş ölkələrdir.

"Həqiqətən bizim əməkdaşlığımız və tərəfdaşlığımız regional çərçivədən çıxdı və beynəlxalq müstəviyə yüksəldi, xüsusən iqtisadiyyat, nəqliyyat, ticarət məsələlərində. Gürcüstan və Azərbaycan bir-birini beynəlxalq formatda hər zaman dəstəkləyir. Bizim xalqlar arasındakı əlaqələr uzunəsrlidir və mədəni əlaqələrdir. Bizim xalqlarımız arasında münasibətlərin böyük tarixi var", - deyə G.Qaxaria bildirib.

## BAŞ NAZİR: "AZƏRBAYCAN VƏ GÜRCÜSTAN GÜCLÜ İQTİSADİ TƏRƏFDAŞDIRLAR"



"Azərbaycan və Gürcüstan güclü iqtisadi tərəfdaşdırlar". Bunu baş nazir Giorgi Qaxaria hökumətin iclasında bildirib.

O deyib ki, iki ölkənin enerji, nəqliyyat və digər sahələrdə əməkdaşlığı beynəlxalq əhəmiyyət kəsb edir.

G.Qaxaria qeyd edib ki, Azərbaycana rəsmi səfəri çərçivəsində ticarət, nəqliyyat, qarşılıqlı investisiyalar və digər əhəmiyyətli sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.

"Əməkdaşlıq effektiv, məhsuldar olmalı və ölkələrimizin maraqlarına əsaslanmalıdır. Regionda baş verən hadisələr fonunda iki ölkə arasında effektiv əməkdaşlıq sülh, sabitlik və təhlükəsizliyin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir", - deyə baş nazir bildirib.

Qeyd edək ki, oktyabrın 9-u Giorgi Qaxaria baş nazir kimi ilk rəsmi səfərini Azərbaycana edib.

## TÜRKİYƏ PREZİDENTİ: SURİYANIN 109 KM ƏRAZİSİ TERRORÇULARDAN AZAD EDİLİB



Türkiyə Silahlı Qüvvələrinin qoşun birləşmələrinin Suriyada Fərat çayının şərqində apardığı "Sülh çeşməsi" (Barış Pınarı) antiterror əməliyyatı zamanı Suriyanın 42 kəndi olmaqla ümumilikdə 109 kilometr ərazisi terrorçulardan azad edilib. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan antiterror əməliyyatı ilə bağlı İstanbulda keçirilən tədbirdə məlumat verib.

Bildirilib ki, əməliyyat başladığı gündən indiyədək Türkiyənin Şanlıurfa, Mardin, Şırnak, Gaziantep şəhərlərindəki yaşayış ərazilərinə ümumilikdə 652 top mərmisi və raket atılıb. Atılan bu partlayıcı maddələrin təxminən yarısı Mardinin Nusaybin və Kızıltepe rayonlarına düşüb. Nəticədə uşaqlar da daxil olmaqla 18 vətəndaş həlak olub, 147 nəfər yaralanıb.

Əməliyyatlar zamanı Türk Silahlı Qüvvələri və Suriya Milli Ordusunun ümumilikdə 18 əsgəri şəhid olub.

Ölkə başçısı sosial mediada əməliyyat barədə səhv məlumat yayan və terror təşkilatlarının təbliğatı ilə məşğul olan 129 nəfərin saxlanıldığını, 589 nəfər haqqında lazımı tədbirlərin görüldüyünü bildirib.

"Vacib olan az itki ilə əməliyyatı tamamlamaqdır", - deyə vurğulayan R.T.Ərdoğan hədəfin Türkiyə-Suriya sərhədindən 30-35 kilometrədək Suriya ərazisinə doğru irəliləmək olduğunu bildirib.

Xatırladaq ki, oktyabrın 9-da Türkiyə Silahlı Qüvvələri Suriyanın şimalında terrorçulara qarşı "Sülh çeşməsi" əməliyyatına başlayıb. Son məlumata görə, əməliyyat zamanı 595 terrorçu zərərsizləşdirilib.

## OKTYABRIN SONU QRİPƏ QARŞI PULSUZ PEYVƏNDLƏRİN VURULMASINA BAŞLANILACAQ



Dövlət proqramı çərçivəsində qripə qarşı pulsuz peyvəndlərin vurulmasına oktyabrın sonu başlanılacaq. Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq üzrə Milli Mərkəzin elmi rəhbəri Paata İmnadze bildirib ki, bu il yüksək riski olan 100 000 adam peyvənd olunacaq.

P.İmnadze həmçinin qızılca ilə bağlı danışıb və vətəndaşları peyvənd olunmağa çağırıb.

"Qızılca ilə bağlı bütün könüllülər üçün yüksək rejimdə peyvəndləmələr davam edir. Peyvənd vurdursalar çox yaxşı olar", - deyə P.İmnadze bildirib.



## QIZLAR GÜNÜ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bu ay da bütün dünya qız uşaqlarını təbrik etdi. Beynəlxalq Qız Uşaqları Günü 2011-ci ilin dekabr ayında Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilib və hər il oktyabrın 11-i qeyd olunur. Bu günün məqsədi qız və oğlan uşaqları arasında olan ayrı-seçkiliyin qarşısını almağa, qızların da təhsil, səhiyyə və digər hüquqlardan istifadə edə bilməsinə, erkən evliliyin, qızlara qarşı zorakılığın aradan qaldırılmasına, gender bərabərliyinə təşviq etməkdir.

Qız övladına qarşı, ümumiyyətlə, qadına qarşı mənfi yanaşma əsrlərdən bəri hələ də dəyişməyib desək yanılmarıq. Hələ də qadınların hüquqları pozulur, qadınlar zorakılığa məruz qalır, istismar olunur, döyülür, söyülür, təhqir edilir...

Ötən ay BMT-nin Əhali Fondunun Gürcüstan ofisi ilə Beynəlxalq İqtisad Məktəbinin birgə apardığı araşdırmanın nəticəsi yayımlandı. Araşdırma Kvemo Kartli, Samtsxe Cavaxeti, Kaxeti və Sameqrelo-Zemo Svaneti bölgələrində aparılıb. Araşdırmanın nəticələrinə əsasən, bu bölgələrdə oğlan övladına üstünlük verilir və cinsiyyətə görə (selektiv) abortlar çoxluq təşkil elir.

Bəli, biz hələ də ərəblərin cəhalət dövründəki kimi qız uşaqlarını diri-diri(!) torpağa gömürük. Axı əlinə bel alıb torpağı qazıb yenicə doğulmuş qız uşağını diri-diri acımasızca basdırmaqla, doğulmaq, dünya işığını görmək arzusu ilə bapbalaca ürəyi döyünən bir körpəni abort masasında ana bətnindəcə əbədi qaranlığa qərq edib diri-diri tikələrə doğradaraq öldürməyin fərqi nədir? Fərqi QIZ olmasından başqa heç nə deyil. Axı hansı haqla Allahın verdiyini bəyənməyərək uşaq qatilinə çevrilirik? Öldürdüyümüz o körpələrin cinsindən asılı olmayaraq həsrətində olan cütlüklər var. Kimləri öldürdüyümüzün fərqindəyikmi? – gələcəyin alimlərini, həkimlərini, yazıçılarını, şairlərini, rəssamlarını, idmançılarını, müəllimlərini, siyasətçilərini və nəhayət gələcəyin analarını. O anaları ki, oğlanı da, qızı da bir-birindən seçməyərək eyni qayda ilə doqquz ay bətnində bəsləyib dünyaya gətirən onlardır. Onlardır adam olduğu bətnin daşıyıcılarına qarşı sonradan üsyan edən, hüquqlarını pozan oğlan uşaqlarını dünyaya gətirib böyüdüb kişi edənlər də. Kişi olmaq qadından üstün olmaq deyil, kişilik qadını da özü ilə bərabər hüquqlu görməyi bacarmaqdır. Ən əsası isə kişili-qadınlı adam olmaqdır, insan olmaqdır.

Biz hələ də qız uşağının təhsil almasına pis yanaşırıq. Qız uşağı uzağı otra məktəbi bitirə bilər. Əlimizdən gələni edirik ki, qızlarımızın ali təhsil sevdası ilə paytaxta gedən yollarına uçurum olaq. Əlimizdən gələni edirik ki, qızlarımızı 18 yaşına çatmamış nişanlayaq, ərə verək ki, "duz yükünü" çiynimizdə daşımaq məsuliyyətindən azad olaq. Düşünürük ki, ərə gedəndən sonra nə edir etsin, əri bilər, ər evi bilər. Ümumiyyətlə, biz düşünmürük, düşünməyi xoşlamırıq, çünki hamının eyni cür düşündüyü yerdə heç kəs düşünmür.

Hələ də qız uşağına ana, bacı, dost, həyat yoldaşı, müəllim, həkim, hüquqşünas, nazir, prezident... əvəzinə nəslin davam etməsi üçün uşaq doğan, "süpürgə", yemək bişirən, qab yuyan, paltar yuyan, "yük", təhsil almağa, fikir bildirməyə, seçim etməyə hüququ olmayan bir varlıq kimi yanaşanlar var.

Hələ də qızları məktəb həyatından (həyatından) oğurlayıb, əşya kimi maşına basıb qaçıranlar, köhnəlmiş adət-ənənə pərdəsi arxasında zorakılığa məruz qoyanlar var. Qızlar hələ də ailə-məişət zorakılığının, naftalin qoxulu adət-ənənələrin, boşanmaların qurbanıdırlar. Hələ də yaşadığımız cəmiyyətdə boşanmış qadına pis münasibət var. Bu cür cəmiyyətlərdə qadın doğulduğu gündən (daha doğrusu doğulmamışdan qabaq) öldüyü günə kimi gərginlik, qorxu içində yaşayır – abort olunmaq və abort etdirmək qorxusu, erkən evlilik qorxusu, uşaq dünyaya gətirə bilməmək qorxusu, boşanmaq qorxusu, kişinin xəyanət edəcəyi gərginliyi, qaynana ilə münasibətin gərginliyi, cəmiyyətin müdaxiləsi gərginliyi və sair, və ilaxır. Bir sözlə, bu cəmiyyətdə qız doğulmaq, qadın olmaq çox çətindir.

Gec də olsa Qız Uşaqları Günü münasibəti ilə bütün qızları, qız övadı olan anaları, ataları təbrik edirik! Və artıq qızla oğlan arasında heç bir ayrı-seçkilik qoymadan ayrı-ayrılıqda ağ, qızılı, qara çadırlara deyil, müstəqil, demokratik, hüquqi dövlətin səması altında toplaşmaq vaxtıdır.

## SALOME ZURABİŞVİLİ GİORGİ QAXARİANIN AZƏRBAYCANA SƏFƏRİNİ QİYMƏTLƏNDİRİB

Prezident Salome Zurabişvili baş nazir Giorgi Qaxarianın Azərbaycana səfərinin yekunlarını alqışlayıb. Bu barədə Prezident Administrasiyası məlumat yayıb.

Məlumatda bildirilib ki, David Qareci (Keşikçi dağ) kompleksindəki məbədlərin Gürcüstan ictimaiyyəti üçün açılması Azərbaycanla sərhəd məsələsində irəliyə doğru atılan növbəti addımdır.

S.Zurabişvili Azərbaycanın Gürcüstanın strateji tərəfdaşı olduğunu qeyd edib.

"Əminəm ki, birgə səylər nəticəsində tərəflər iki dost ölkənin maraqlarına cavab verən çıxış yolunu mütləq tapacaqlar", - deyə prezident bildirib.



Qeyd edək ki, baş nazir Giorgi Qaxaria Azərbaycandan qayıdandan sonra Keşikçi Dağı Məbəd-Kompleksindəki məbədlərin gürcü zəvvarlar üçün oktyabrın 11-dən etibarən açılacağını bildirib.

## BAŞ NAZİRİN YENİ MƏSLƏHƏTÇİSİ TƏYİN OLUNUB

Gürcüstanın baş naziri Giorgi Qaxariaya məsləhətçi olaraq Kaxa Kaxişvili təyin olunub.

Kaxa Kaxişvili bundan əvvəl Gürcüstanın hökumət administrasiyasının rəhbəri olub. Onu bu vəzifədə Natia Mezvrişvili əvəz edib.



## PARLAMENT SEÇKİLƏRİNƏ 41 MİLYON LARİDƏN ÇOX VƏSAİT AYRILACAQ

2020-ci ildə keçiriləcək parlament seçkilərinə 41 milyon 953 min lari vəsait ayrılacaq. Bu məbləğ 2020-ci ilin dövlət büdcəsində nəzərdə tutulub.

Bununla yanaşı, Gürcüstanın Mərkəzi Seçki Komissiyası gələn ilki dövlət büdcəsindən 72 milyon 569 lari vəsait alacaq. Bu məbləğin 29 min laridən çoxu əməkdaşların əməkhaqqına, 70 milyon laridən çoxu isə MSK-nın xərclərinin qarşılanmasına yönəldiləcək.




## ÖLKƏDƏ İNTİHARA CƏHD HALLARI ARTIB

Gürcüstanda intihara cəhd hallarının sayı artıb. 2019-cu ilin 6 ayı ərzində ölkədə 219 intihara cəhd halı qeydə alınıb və 207 nəfər intihar edərək dünyasını dəyişib. Bu haqda Gürcüstanın ombudsmanı Nino Lomcaria açıqlama verib.

Onun sözlərinə görə, 2018-ci ildə 389 intihar halı və 477 intihara cəhd halı qeydə alınıb və psixoloji problemlər daha çox narkotik vasitələrin təsiri altında yaranır.

N.Lomcaria bildirib ki, psixoloji sağlamlıq ölkədə problemli sahələrdən biridir. Dövlət bu xəstəliyə qarşı mübarizəyə dair



xüsusi proqramın hazırlanmasının vacibliyini qeyd etsə də, hələlik belə bir proqram qəbul olunmayıb.

## YENİ DÖVLƏT AGENTLİYİ YARADILIR

Hökumətin qərarına əsasən, Gürcüstanda Məşğulluğun Artırılması üzrə Dövlət Agentliyi yaradılır.

İctimai hüquqi şəxs olacaq yeni qurum dövlətin əmək bazarında fəal siyasətini həyata keçirəcək və əhali arasında məşğulluğun artırılması istiqamətində fəaliyyət göstərəcək.

Yeni agentliyə Sosial Xidmət Agentliyinin əmək və məşğulluğu təşviq etmək funksiyaları və səlahiyyətləri həvalə olunacaq.

# M.ÇAVUŞOĞLU: "SÜLH ÇEŞMƏSİ" ƏMƏLİYYATI SURİYALILARI TERROR QRUPLAŞMALARININ ZÜLMÜNDƏN XİLAS EDƏCƏK



Türkiyə terrorçuların sərhədyanı ərazilərdə yaratdığı təhlükəni aradan qaldıraraq, milli təhlükəsizliyi təmin etmək üçün "Sülh çeşməsi" əməliyyatını başladıb. Bu əməliyyat bölgədə yaşayan suriyalıları terror qruplaşmalarının zülmündən xilas edəcək və Suriyanın ərazi bütövlüyü, siyasi birliyi üçün yaranan təhdidləri aradan qaldıracaq. Bu iki proses yurdlarından didərgin düşmüş suriyalıların təhlükəsiz və könüllü şəkildə geri qayıtmalarını asanlaşdıracaq.

Bu fikirlər Türkiyənin Suriyanın şimalında təhlükəsizlik bölgəsinin yaradılması məqsədilə həyata keçirdiyi "Sülh çeşməsi" (Barış Pınarı) əməliyyatı ilə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun "New York Times" qəzetində dərc olunan "Niyə Türkiyə mübarizəni Suriyada aparır?" sərlövhəli məqaləsində yer alıb.

Məqalədə "Sülh çeşməsi" əməliyyatının kürdlərə qarşı olması, İŞİD-ə qarşı mübarizəni zəiflədəcəyi ilə bağlı Amerika mətbuatında yer alan xəbərlərdən narahatlıq ifadə edilib. Qeyd olunub ki, Türkiyə təhlükəsizlik bölgəsinin yaradılması və ABŞ-ın terrorçuları dəstəkləməməsi ilə bağlı dəfələrlə BMT-yə müraciət edib. Təəssüf hissi ilə vurğulanıb ki, ABŞ-ın özündə də bəzi dairələrin, eləcə də bir sıra ölkələrin PKK-nı terror təşkilatı kimi qəbul etməsinə baxmayaraq, Birləşmiş Ştatlar PYD/YPG-yə dəstək verməkdə davam edib.

Nazir məqalədə vurğulayıb: "Biz bu əməliyyata başlamalı idik. Bəziləri Suriyada kürd əhalinin təhlükəsizliyi ilə bağlı narahat olduqlarını ifadə edirlər. Türkiyənin mübarizəsinin kürdlərə qarşı olmadığını bir daha vurğulamaq istəyirəm. Bizim mübarizəmiz terrorçulara qarşıdır. Vəziyyətin "kürdlərə qarşı türklər" olaraq təqdim edilməsi doğru deyil. Kürdlər bizim düşmənimiz deyil. Hədəfimiz PKK və PYD/YPG-nin birlikdə reallaşdırdığı, onların nəzarət etdikləri bölgələrdə uşaqları terror düşərgələrinə cəlb edən, müxalifləri aradan götürən, demoqrafik vəziyyəti dəyişdirən və zorakı əsgərlik sistemi tətbiq edən terror qruplaşmasıdır. PYD/YPG əsarətindən əziyyət çəkən kürdlər, ərəblər, xristianlar və digərləri azadlıqlarına qovuşduqlarında daha yaxşı olacaqlar".

Ötən bir neçə ildə Türkiyənin ərəblər, kürdlər və türkmənlər olmaqla şimal-şərqi Suriyada xeyli sayda qaçqına sığınacaq verdiyinin qeyd edildiyi məqalədə vurğulanıb ki, 300 mindən çoxu kürd olan həmin qaçqınların əksəriyyəti məhz terrorçular tərəfindən yurdlarından didərgin ediliblər. Biz həmin insanları Türkiyədə sığınacaq və yaşayış şəraiti ilə təmin etdik. Türkiyə dünyada humanitar yardım məsələsində ən səxavətli və dünya miqyasında ən çox qaçqına ev sahibliyi edən ölkədir.

"Türkiyə son üç ildə etibarlı bir model formalaşdırıb. Türkiyənin 2016-2017-ci illərdə Cerablus, 2018-ci ildə Afrində olmaqla Suriyanın şimal-qərbində həyata keçirdiyi əməliyyatlar nəticəsində geniş bir ərazi terrorçulardan təmizlənib. Bu əməliyyatlardan sonra 365 min qaçqın Suriyanın şimal-qərbindəki yurdlarına qayıdıblar... Suriyalılar artıq evlərinə qayıtmaq istəyirlər. Onlar həddən artıq zülm çəkiblər. Milyonlarla qaçqının evlərinə qayıtması üçün lazım olan sülhün bərqərar olmasına yardım etmək üçün təşəbbüsü üzərimizə götürürük. Qərəzli yanaşmalardan fərqli olaraq, əməliyyatımız problemin humanitar tərəflərinə önəm verməyə, ölkənin ərazi bütövlüyünün qorunmasına və siyasi həll prosesinə töhfə verməyə yardım edəcək", - deyə M.Çavuşoğlunun məqaləsində qeyd olunub.



# DƏYƏRİ BİLİNMƏYƏN NEMƏT

Hacı BƏKİROĞLU
hacibakir@mail.ru



Bu yaxınlarda oxuduğum bir yazıda bu cümlələr yazılmışdı: "Hərəkət etməyən heç bir varlıq yoxdur bu kainatda. Daşdan qalaktikalara qədər hər şey bir hərəkət və dövr halındadır. Canlı olsun, cansız olsun – hər bir varlıq dayansa yox olacağının fərqindədir ".

Bəli, elə buna görə də təbiət boşluq qəbul etməz deyirlər. Çünki boşluq, yoxluqdur… Ucsuz-bucaqsız kainatda necə ki, boşluğa yer yoxdursa, müsəlmanların həyatında da boşluğa yer yoxdur. Çünki boş dayanan müsəlman nəfsinin arzu və istəklərinə uymağa meyilli olar. Bu səbəbədir ki, Uca Allah "Bir işi bitirdiyində dərhal başqa bir işə başla" (İnşirah, 94/7) buyurur. Peyğəmbərinə və onun simasında bütün insanlığa, zamanın aktiv bir şəkildə dəyərləndirilməsi və boşluğa/tənbəlliyə fürsət verilməməsi lazım olduğuna diqqət çəkir. Hz. Peyğəmbər (s.ə.s.) də "İki nemət vardır ki, insanların çoxu bu nemətlərin qədrini bilmir: səhhət və boş vaxt" (Buxari, Rikak, 1) buyuraraq zamanın qiymətinin bilinməsini istəmişdir.

Əslində qəzetin bu sayı üçün tamamilə başqa mövzuda bir yazı yazmağı düşünürdüm. Ancaq günümüzün gənclərinin yol kənarında boş-bekar durub, gələnə-gedənə sataşmaları, hər iki kəlmədən biri ədəbsiz söyüşlərdən ibarət olan danışığı məni narahat edir. Peyğəmbər əfəndimiz "İki günü eyni olan ziyandadır" buyurur. Gəl gör ki, bunların hər günü eynidir. Təbii ki, bunu bütün gənclərə şamil etmək olmaz. Hər gün eyni istiqamətdə yol gedib-gəldikdə eyni səhnənin tamaşaçısı olursan. Hələ bunun bir də gecələr yol kənarında durub yüksək səslə söyüş etməsi var. Yol kənarında ev var, o evdə qadın var, uşaq var əndişəsi də daşımaz bu "qəhrəman" gənc.

Yuxarıda da qeyd etdiyim kimi, müsəlmanın həyatında da boşluğa yer yoxdur. Bunlara sən müsəlman deyilsən desən, bu dəli olub deyər. Bekar durub zamanı israf edənə də müsəlman demək düzgün deyil axı. Bu gənclərin nə işləməklə araları var, nə də oxumaqla. Niyə işləmirsən deyə soruşsan, "iş var ki, işləyim?" deyə səni suçlu çıxarar. Evlənmək üçün də gündə bir qızın dalınca o yan, bu yan gəzənləri unutmuşdum az qala. Yaşları 20 olmamış düşürlər valideynin üstünə ki, məni evləndir. Onlar da dəridən, qabıqdan çıxaraq "qonşudan qalma dala" prinsipinə əməl edib hay-haraylı, çalçağırlı bir toy mərasimi qururlar. Sonra da beş il bu xeyir işin kreditini ödəməklə zülm çəkirlər. Bu gənclərin oxumağa olan həvəsləri də işləmək qədərdir. Əllərinə keçən qəzeti qoyub üstündə otururlar.

Kimə də bir söz deyirsən, sənə Avropadan misal gətirir. Əzizim, düzdür, avropalaşmaq lazımdır yeri gələndə. Ancaq gəlin Avropanın gözəl yönlərini nümunə alaq. Təhsilli gənclərini, gündə bir ixtiraya imza atan gənclərini örnək götürək.

Yer üzündə Allahın xəlifəsi olaraq vəzifələndirilən və dünyanı abadlıq ilə məmur olan bizlərin bu vəzifələri layiqiylə yerinə gətirə bilməmiz üçün zamanı ən ideal şəkildə istifadə etməmiz lazımdır.

Axı bizlər mələklərin belə qıbtə etdiyi varlıqlarıq. Elə isə, gəlin dünyaya gəliş səbəbimizi unutmayaq, Allahın bizə verdiyi bu qısa ömrü elə yaşayaq ki, sabah boş keçən günlər üçün heyfslənməyək.

# “MİLLİ AZLIQLARIN MÜDAFİƏSİ HAQQINDA” ÇƏRÇİVƏ KONVENSİYASININ MƏSLƏHƏTÇİ KOMİTƏSİNİN GÜRCÜSTANLA BAĞLI HESABATI

***“Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyasının (FCNM) Məsləhətçi Komitəsi bir neçə gün əvvəl Gürcüstanla bağlı üçüncü monitorinqin hesabatını yayımlayıb. Hesabatda Komitə Gürcüstan tərəfindən “Milli azlıqların müdafiəsi haqqında” Avropanın Çərçivə Konvensiyasının tələblərinin yerinə yetirilməsini qiymətləndirib.***

Məsləhətçi Komitənin qiymətləndirməsinə əsasən, Çərçivə Konvensiyasının tətbiq edilmə prosesi əvvəlki monitorinqdən sonra dəyişməz olaraq qalır. Komitə bərabərlik və inteqrasiyaya dəstək məqsədi ilə anti-diskriminasiya qanunvericiliyinin, inteqrasiya sahəsində xüsusi strategiyanın, fəaliyyət planları və proqramlarının hazırlanmasını alqışlayır, ancaq Çərçivə Konvensiyasının implementasiyası və bərabərliyin reallıqda təmin edilməsi baxımından problemlər görür.

Məsləhətçi Komitənin fikrincə, bu, əsasən gürcü ictimaiyyətinin milli azlıqlara qarşı ambivalentlik göstərməsindən yaranır. Bir tərəfdən rəngarəngliyin gücləndirilməsi üçün dövlət və vətəndaş cəmiyyətinin çalışması aşkardır – dövlət vətəndaş cəmiyyətilə yanaşı rəngarəngliyin tətbiq edilməsinə çalışır ki, bu da vətəndaş bərabərliyi və inteqrasiya ilə bağlı dövlət strategiyası və onun 2015-2020-ci ilin fəaliyyət planının qəbul edilməsində də özünü göstərir. Ancaq digər tərəfdən azlıqların məsələləri təhlükəsizlik sahəsində və millət-dövlət quruculuğu kontekstində müzakirə olunur və azlıqlara qarşı bəzi etimadsızlıqlar da nəzərə alınmalıdır. Dini və milli azlıqların məsələləri obyektiv araşdırılmadan siyasiləşdirilib.

Komitənin dediyinə görə, Qafqaz Resurs Mərkəzinin yeni araşdırmasının nəticəsi narahatedicidir. Araşdırmaya əsasən, əhalinin demək olar ki, yarısı etnik və dini müxtəlifliyə mənfi yanaşır. Bu tədqiqat hakimiyyətin müvafiq orqanları tərəfindən yaxşı analiz edilməlidir və azlıqlara, eləcə də əksəriyyətin məlumatlanmasına istiqamətlənəcək proqramın hazırlanması və bu mövzularla bağlı dialoq vacibdir.

Gürcüstan insan hüquqları və inteqrasiya istiqamətlərində yeni strategiyalar, həmçinin vətəndaş bərabərliyi və inteqrasiya sahəsində yeni dövlət proqramları və onların 2015-2020-ci illər üçün fəaliyyət planını yaradıb. Komitənin fəaliyyət planının məqsəd və addımlarını müsbət qiymətləndirməsinə baxmayaraq, onun dəyərləndirməsinə əsasən, plan, xüsusən də etnik nümayəndələr haqqında məlumatlar yetərli sübutlara və araşdırmalara əsaslanmır.

Məsləhətçi Komitə qeyd edir ki, əhalinin siyahıyaalınması gösətricilərinin rəsmi əldə olunması mexanizmi problemlidir. Mövcud məlumata görə, 2023-cü ildə aparılacaq növbəti siyahıyaalma formasının dəyişdirilməsi planlaşdırılmayıb, ancaq əvvəlki siyahıyaalma zamanı da  özünü identifikasiya və ya qarışıq mənşəyin qeydə alınması baxımından siyahıyaalma formasında səhvlər var idi. Şura qeyd edir ki, azad özünü identifikasiya imkanı azlıqların müdafiəsi üçün vacibdir. Formada həmçinin din, dil və etnik mənşələr haqqında sualların məcbur olub-olmaması da aydın şəkildə qeyd olunmamışdır. Rəsmi statisitikanı əldə etmək azlıqlar üçün effektiv siyasətin yaradılmasının ön şərtidir, ancaq nəzərə alınmalıdır ki, siyasi kurs yalnız rəsmi dövlət statistikasına əsaslanmamalıdır və populyasiyanın etnik göstəriciləri müstəqil araşdırmalarla da yoxlanılmalıdır, belə olduqda çatışmamazlıqlar da görsənəcək. Komitəyə




görə, siyahıyaalmanın həyata keçirilməsinə qədər, milli azlıqlarda siyahıyaalmanın əhəmiyyəti və məlumat toplayarkən onların hüquqları haqqında məlumatlandırmanın artırılması əhəmiyyətlidir.

Milli azlıqların siyasi həyatda iştirakı yenə də aşağı səviyyədədir, ancaq sonuncu seçkilər milli azlıqların yüksək aktuallığını göstərdi və bu, siyasi partiyaların marağına səbəb ola bilər. Komitə düşünür ki, ərazi əlaməti ilə siyasi partiya yaratmağın qadağan olunması milli azlıqlara qarşı siyasi iştirakda maneədir. Milli azlıqarın parlamentdəki nümayəndəliyi qənaətbəxdşir, amma onların çoxluq təşkil etdiyi bəzi şəhərlərin hakimiyyət orqanlarında nümayəndəliyi çox aşağıdır.

Dövlət ictimai sektorun bütün aspektlərində gürcü dilini tətbiq etməyə çalışır, ancaq Çərçivə Konvensiyasının standartlarına əsasən milli azlıqların dilində tədris, bu dillərin öyrənilməsi, inzibati və başqa işlərdə, hüquqi sahədə və xəstəxanalarda azlıqların dilindən istifadə aşağıdır: hüquqi sənədlərin, qanunların, inzibati və ya başqa növ məlumatların tərcüməsi və ixtisaslı tərcüməçilərin əlçatanlığı milli azlıq nümayəndələri üçün problemdir. Komitə üçün xəstəxanalarda tərcümə edəcək rəsmi şəxslərin olmaması narahatedici haldır. Bu müəssisələr tanışlar tapmaq vasitəsilə milli azlıqlarla ünsiyyət qururlar. Komitə azadlıqdan məhrum edilmiş şəxslər üçün sənədləri öz dillərində təqdim etmək imkanının verilməsini və tərcüməçi xidmətinin olmasını müsbət qiymətləndirir, ancaq nəzərə alınmalıdır ki, milli azlıqların az sayda yaşadığı yerlərdə bu, Azərbaycan və erməni dillərində tərcüməçilərin az olmasına və ya maddi resursların çatışmamazlığına görə mümkün olmur. Milli azlıqların dili üzrə Avropa Xartiyası isə 2000-ci ildə verilən vədə baxmayaraq hələ də təsdiqlənməyib.

Milli azlıqların gürcü dilini bilməməsi onların sosial həyatda, həmçinin təhsil, işlə təmin olunmanın əlçatanlığında məhdudlaşdırılmasına səbəb olan problemdir. Bu problemin həlli hakimiyyətin əsas məqsədi olmalıdır. Bu problem orta, başlanğıc və ondan aşağı olan pillələrdə daha ciddidir. Komitənin fikrincə, problemin özü tədris siyasətindədir. Eləcə də gənc müəllimlərə dəstək göstərmək, çoxdilli proqramlar haqqında məlumatın artırılması və çoxdilli proqramın Gürcüstan kontekstində tətbiqi vacibdir.

Milli azlıqların dilində olan tədris materiallarının tam tərcümə və adaptasiya olunmaması problemlidir. Hakimiyyət təhsil yolu ilə mədəni dialoqu və azlıqların iştirak etmək imkanını təmin etməlidir. Bunun üçün isə milli azlıqların məktəbləri və gürcüdilli məktəblər arasında mübadilə proqramları və yay məktəblərinin təşkili vacibdir. Eləcə də ali təhsil proqramlarına dəstək və bu proqramları davam etdirmək mütləqdir. Təəssüfedicidir ki, Gürcüstanda milli azlıqların dilində olan məktəblərdə tədris problemi var və bu dillərin tədrisi üçün dərs saatları da kifayət qədər deyil.

Məsləhətçi Komitə anti-diskriminasiya qanununun qəbul olunmasını və bərabərlik üçün xüsusi mexanizmlərin yaradılmasını alqışlayır, ancaq təəssüf edir ki, Xalq Müdafiəçisinin regionlar üçün maddi resursu yetərli qədər deyil. Marneuli və Axalkalakidə etnik diskriminasiya ilə bağlı şikayətlərin olmaması onun göstəricisidir ki, etnik azlıqlar onların müdafiəsi baxımından olan hüquqi mexanizmlər haqqında bilmirlər. Bu baxımdan isə Komitə qeyd edib ki, Xalq Müdafiəçisinin məlumatlandırma səviyyəsinin artırılması üçün maddi resursları, ümumiyyətlə, yetərli deyil. Buna baxmayaraq ki, dövlət məmurlarına qanun haqqında təlimlər keçirilib, əhalinin mövcud qanunlardan məlumatı azdır, eləcə də əhalinin bu məsələnin həlli ilə bağlı hakimiyyətə qarşı etibarı azdır.

Komitə narahatlığını bildirir ki, Xalq Müdafiəçisinin rekomendasiyaları sistemləşdirilmiş formada tamamlanmır və nəticədə rekomendasiyaların bir hissəsi reaksiyadan kənar qalır. Bundan əlavə, Xalq Müdafiəçisinin ofislərində çalışan milli azlıqların dilində danışan adamların sayı azdır. Azlıq nümayəndələrinin şikayətləri sertifikatsız əməkdaşlar tərəfindən tərcümə olunur və bu da problemlidir. Belə ki, Xalq Müdafiəçisinin himayəsi ilə fəaliyyət göstərən etnik azlıq şuraları və Dini Şuranın rekomendasiyaları nəzərə alınmır və Komitə ümid edir ki, gələcəkdə rekomendasiyalara baxılacaq.

Komitə dini azadlığın məhdudlaşdırılmasının azaldılması ilə bağlı Konstitusiyaya edilən dəyişiklikləri alqışlayır, ancaq dini azlıq nümayəndələrinin yaşamalı olduğu struktur baxımından dəyişən vəziyyət təəssüfedcidir.  Gürcüstanın pravoslav kilsəsi və dövlət arasındakı “Konstitusional razılaşma” və privilegiyalar da qeyd edilməlidir. Bu kontekstdə Konstitusiya Məhkəməsi müəyyən edib ki, dövlətdən kilsənin sahibliyinə keçiriləcək əmlak və kilsələrin bərpası zamanı vergilərdən azad edilməsi diskriminasiya daşıyan təcrübədir. Vacibdir ki, konkret dini icmaya privilegiya və xüsusi status verən dövlət neytral qalsın. Digər dini qrupların da bu statusa bərabər şəkildə əlçatanlıq imkanının olması mütləqdir.

Komitənin sözlərinə görə, dini azlıqlar maliyyələşdirmə və əmlak məsələləri ilə bağlı da struktur diskriminasiyası ilə qarşılaşırlar. Restitusiya prosesi və kult tikililərin inşa prosedurları yetərli dərəcədə şəffaf deyil və aydın, obyektiv hüquqi meyarlara əsaslanmır. Komitə hesab edir ki, Sovet Şurası zamanı alınan dini tikililər haqqında proses irəli getmir və tarixi mirasın tapılması hələ də mümkün olmayıb. Bu isə tikililərin vəziyyətinin daha da pisləşməsinə səbəb ola bilər.

Dini azlıq nümayəndələrinin təşkilatları dini tikililərə əlçatanlıq hüququna malik deyillər, yalnız tikililərin bir hissəsi pravoslav kilsəsinin adına qeydiyyat olunub. Məktəblərdə dini diskriminasiya halları ilə bağlı, həmçinin milli azlıqlara qarşı fiziki təmas, “Yahova şahidləri”nə qarşı etiraz aksiyaları, məktəblərdə kollektiv şəkildə məcburi ibadət etmək və müəllimlər tərəfindən məktəblərdə dini atributların satışı kimi hallarla bağlı  Komitə öz narahatlığını bildirir.

Müsəlmanları təmsil edən təşkilatlara yanaşmada dövlət nəzarəti artıb. 2014-cü ildə şeyxin güman edilən məcburi azad olunması ilə bağlı istintaq dayandırılıb,

eləcə də digər şeyxin qeyri-müəyyən vəziyyətdə həbs olunması narahatedicidir.

Komitə Xalq Müdafiəçisi aparatında fəaliyyət göstərən Dini Şuranın əhəmiyyətini diqqətə çatdırır. Şura 33-dən artıq dini təşkilatı birləşdirir və müstəqil və üfüqi platformadır. Şuraya dəstək olmaq çox vacibdir, çünki Komitənin dediyinə görə, dini azlıqların Dini Məsələlər üzrə Dövlət Agentliyinə qarşı etibarları aşağıdır.

Xalq Müdafiəçisinin 2017-ci il hesabatına düşən hallar narahatedicidir: Türkiyədən gələn müsəlman şəxslərdən Quran kitabının alınması, onların sərhəddə uzun müddət saxlanılması və Pankisi dərəsində müsəlman icmasına qarşı yanaşmalar. Baxmayaraq ki, qanunvericilik dini azadlığı qoruyur, Məsləhətçi Şura narahatdır ki, vətəndaş bərabərliyi və inteqrasiya strategiyası belə sistemli və aşkar diskriminasiya ilə mübarizəyə çıxmağı bizə təklif etmir.

Mesxeti türklərinin qaytarılması layihəsinə gəldikdə isə, Komitənin sözlərinə görə, hakimiyyətin cəhdləri dəyələndirilməlidir, amma sürgün edilənlərin yalnız bir hissəsi qaytarılıb, çünki Azərbaycan vətəndaşlığı olanlar üçün Azərbaycan vətəndaşlığından imtina etməklə bağlı manеələr yaranır. Qaraçı icması üçün isə ən böyük problem vətəndaşlıq statusu və uşaqların təhsilə əlçatanlığı baxımından sənədləşdirmədir.

Gürcüstanın Baş Prokurorluğunun Ofisinin 2016-cı ildə yayımladığı nifrət motivli cinayətlər haqqında rekomendasiya və bu növ cinayətlərlə bağlı statistikanın toplanması müsbət qiymətləndirilir. 2018-ci ildə DİN-də nifrət motivli cinayətlərin monitorinqi və vəziyyətin yaxşılaşdırılması üçün yaradılmış olan insan hüquqları şöbəsi alqışlanmalıdır. DİN-də müstəntiqlər üçün treninqlər seriyası da müsbət qiymətləndirilir. İşlər daha çox nifrətlə yaranmış cinayətlərin motivi ilə qaldırılır, ancaq problem odur ki, istintaq sonuna qədər getmir. 2018-ci ilin sentyabrında milli azlıq nümayəndəsinin qətlinin nəticəsi hələ də məlum deyil. Şura bu işi xüsusi maraqla müşahidə etdi.

2018-ci ilin iyulunda parlament “Dövlət Müfəttişlik Xidməti haqqında” yeni qanun qəbul etdi və Komitə bunu alqışlayır. Ancaq etnik azlıqlara qarşı polis gücünün həddinin aşması halları ilə bağlı istintaq aparılmır. Onlar arasında Pankisidə 2017-ci ildə aparılan xüsusi əməliyyat da var. Bu işdə, öldürülənin ailəsi və nümayəndələri iş materiallarını əldə etməkdə çətinlik çəkirlər.

Komitə diqqətə yetirir ki, ictimai müzakirələrdə nifrət dilindən istifadə çox hallarda nifrətlə yaranmış cinayətlərə səbəb olur. Onlar arasında 2017-ci ilin mart ayında “Gürcü Marşı”nın qeyri-tolerant etirazçılarının üzvləri tərəfindən sosial şəbəkələrdən istifadə etməsi də var. Məsləhətçi Komitənin əvvəlki rekomendasiyalarına baxmayaraq dövlətdə nifrət dilinin monitorinq sxemi yoxdur. Vətəndaş cəmiyyəti nifrət dilini mediada monitorinq edir, ancaq dövlət buna nadir hallarda reaksiya göstərir. Məlum olduğu kimi, tez-tez dövlət məmurları nifrət daşıyan bəyanatlar verirlər, həmçinin milli azlıqlara qarşı, bu isə narahat edicidir. Nifrət dilindən istifadə etdikləri halda dövlət məmurlarına mütləq reaksiya göstərilməlidir.

“İctimai kanal” ölkədəki rəngarəngliyi nəzərə almalıdır, ancaq kanalın efirində yayımlanan, müxtəlif azlıqların dilinə tərcümə olunan “Moambe” dayandı. Komitənin fikrincə, informasiya verilişləri nəinki yalnız tərcümə olunmalı, hətta azlıqların baxış və problemlərinə yönəlməli, onların lokal və bütün Gürcüstan miqyasında baş verən hadisələrə qoşulmasını təmin etməlidir. “İctimai kanal”ın 24 saat ərzində 7 dildə tamaşaçıya məlumat təklif edən veb-platforması müsbət dəyərləndirilir. Şura bu prosesi müşahidə edir. Bu şəraitdə milli azlıqlara internetin verilməsi prosesləri maneəsiz aparılır və bu halda milli azlıqlara internet verilməsi prioritetli olmalıdır. Əsas məlumat almaq mənbəyi kimi televiziya unudulmamalıdır və televiziya yayımında milli azlıqların dilində məlumatın olmaması düşündürücüdür. Azlıqların dilində bəzi çap olunan nəşriyyatların maliyyələşdirilməsi alqışlanmalıdır. Ancaq bu da yetərli deyil və Şura ümid edir ki, başqa dillərdə başqa qəzetlərin maliyyələşdirilməsi imkanı da mümkün olacaq. Baxmayaraq ki, 2015-ci ildə qəbul olunan qanunda yazılıb ki, lazım olan halda sənədlər, xüsusən də gürcülərlə yanaşı başqa etnik azlıqlar yaşayan regionlarda posterlər, işarələr və s. milli azlıqların dilinə tərcümə olunur. Komitə təəssüf edir ki, bu qanunun özü milli azlıqların dilinə tərcümə olunmayıb. Milli azlıqların məskunlaşdığı regionlarda onların dilində topoqrafik işarələr yoxdur və bunun düzəldilməsi vacibdir.

Komitə 2025-ci ilin mədəni strategiyasını müsbət qiymətləndirir, ancaq onun fikrincə, maddi və qeyri-maddi mirasla bağlı strategiyalar aydın deyil. Strategiyanın problemi odur ki, onun effektləri uzunmüddətli perspektivdə az qiymətləndirilib və konkret addımlara və layihələrə istiqamətlənir. Şura qrant əldə etmənin şəffaf prosedurlarını alqışlayır. Problem odur ki, yüksək rəqabət şəraitində çox təcrübəli şirkətlər qalib gəlir, etnik azlıqlar isə buraya düşə bilmir.

***Pankisidə əhali ilə razılaşmadan böyük infrastruktur layihələrinə, HES-lərin tikintisinə cəhd var idi. Milli azlıqların yaşadığı yerlərdə infrastruktur layihələrinin həyata keçirilməsi onların fikrini nəzərə alaraq planlaşdırılmalıdır. Milli azlıqların Tbilisiyə getmələri və xidmətlərdən istifadə etmələri üçün yetərli infrastruktur olmalıdır, məsələn, yollar. Eləcə də milli azlıqların yaşadığı yerlərdə infrastruktur layihələrinə iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün yerli sakinlərin qoşulması mütləqdir.***

*Mənbə: EMC.org.ge*

*Gürcü dilindən tərcümə:* **Aynurə ƏLİYEVA**

# XOŞBƏXTLİYİNƏ QOVUŞMUŞ İTLƏRİN NAĞILI



Avropalıların, bizim misalımızda hollandların necə yaşadığını, nə ilə nəfəs aldığını anlamaq üçün yüzlərlə baxış bucağı arasından seçdiyim bu mövzu bilirəm ki, kimlərinsə dodağını büzməsinə, üzgözünü turşutmasına nədən olacaq. Bunları bilsəm də, mən buradan yola çıxmağı məqsədəuyğun sayıram və düşünürəm ki, bunu anlayışla qarşılayanlar daha çox olacaq.

Avropa cəmiyyətinin, bir az da dəqiqləşdirsək hollandların heyvanlara olan sevgiləri, bu sevginin müxtəlif təzahürləri bizim heyrətimizə, təəccübümüzə səbəb olur. Az qala onların bu heyvan sevgiləri bizim nəzərimizdə aşırı maniya kimi görünə bilər. Avropalının itə, pişiyə və digər heyvanlara sevgisi sərhəd tanımır. İtin, pişiyin holland ailəsinin bir ayrılmaz parçası olduğunu demədən keçmək istəmirəm. Ailəyə alınan bir heyvan artıq özünü həmin ailənin tamhüquqlu üzvü kimi hiss edə bilir və həmin andan öz xoşbəxtliyinə qovuşur.

Fikrimi bir qədər də dəqiqləşdirim. Mən bir neçə ay qabaq ayağımı bu yerlərə basdığım ilk günlərin müşahidəsinə arxalanaraq “İtləri də adamları qədər xoşbəxt ölkə” adlı silsilə yazılar yazmağı düşünürdüm və bu fürsəti gec də olsa dəyərləndirirəm. Və qayıdıram Avropa köpəklərinin xoşbəxtliyini əsaslandırmağa.

Bizim köpəklərdən fərqli olaraq buraların köpəklərinin qulağının, quyruğunun kəsiləcəyindən zərrə qədər də narahatlığı yox, boğuşdurularaq şikəst olmaq, həlak olmaq əndişəsi də yox. Axanı var, baxanı var, nədən qorxsun ki? Hər cür qayğı ilə bəslənmiş köpək xoşbəxtlərin xoşbəxti deyilmi? Xəstələndikdə dava-dərmanı yanında, həkimi başının üstündə.

Hollandiyada yiyəsiz küçə itlərinə rast gəlmək mümkün deyil. Nədən ki, hər bir itin sahibi var. Yiyəsiz itə bələdiyyə sahib çıxır, ona yeni ailə tapılana qədər it sığınacağında yaşayır və qısa müddət ərzində ona yiyə tapılır. Sahibi bunun üçün dövlətə aybaay vergi ödəməli olur. Heyvanın sənədləri qaydasında olmalıdır. Yaş kağızı, it həkimindən kağız-kuğuzu və mənim bilmədiyim başqa nələrisə yerli-yerində oldumu itbazın da, itin də işi düzəlir və it görmədiyi günə düşür, it itlikdən çıxır, ailənin oğlu-qızı statusuna yiyələnir. Hər ay dövlətə rüsumu ödənilən, biş-düşü, çiş-mişi xüsusi zövqlə yapılan itə necə xoşbəxt deməyəsən, axı? Söyülməyin, döyülməyin nə olduğunu bilməyən, daşlanmayan, dışlanmayan itə xoşbəxt deməmək olarmı? Sahibi ilə eyni məkanı, eyni mənzili paylaşan it niyə bəxtəvər olmamalıdır? Zibil qutularında yem axtarmaq, soyuqdan donmaq, istidən ləhləmək qayğısından azad olan itə biz xoşbəxt deməməklə nəyi düzəltmək istəyirik ki?

Avropada itlə dostluq edənlər əllərinə çomaq götürmürlər. Buna görə də , sevgi və qayğı ilə bəslənən it buna nifrətlə yox, elə sevgi ilə də cavab qaytarır. Qulağı kəsilmək təhlükəsindən uzaq olan it sahibindən qorxmağı ağlından belə keçirmir. Əksinə, sahibinə güvənir. O üzdən də minlərlə itin olmasına rəğmən, burada it hürüşlərini çox az-az eşidərsən. Onda da it hirsindən-hikkəsindən deyil, sahibini sevindirmək üçün elə-belə kefinin köklüyündən bir-iki ağız hürür. Həm özünün kefi açılır, həm də sahibinin üzünə təbəssüm qondurur. Qısa kəssəm, Avropada itlər bizim itlər kimi it günü yaşamırlar. Bunu burada inkişaf etmiş it təsərrüfatı da sübut edir. Minlərlə insanın çörəyi bu təsərrüfatdan çıxır. İndi mən bir-bir deyim, siz də təsdiqləyin. İtləri gəzdirmək üçün xüsusi arabaları, xüsusi geyimləri istehsal edən fabriklərin olması, itlər üçün çeşidli qidaların istehsalı ilə məşğul olan sənaye müəssisələrinin varlığı dediklərimin təsdiqinə kifayət etsə də, mən bir-iki örnək də vermək niyyətindəyəm. Saysız-hesabsız it təlimçilərinin – kinoloqların, yüzlərlə it həkiminin, sayı bilinməyən it bərbərinin çörəyi də bu heyvandan çıxır.

Deyirəm mövzunu ələ almışkən, kiçik bir tarixi ekskurs da edək. Əski dönəmlərdə Qədim Misirdə, Mesopatamiyada, türk qövmlərində, atəşpərəstlikdə itə saygı bəslənilmiş, ona qutsal, düşərli, uğurlu bir heyvan kimi baxılmışdır. Hətta Qədim Misir əhalisi it ölərkən ona yas saxlamış, onu xüsusi mərasimlə dəfn edərək, məzarı üstündə məqbərə ucaltmış, həmin yeri tapınağa çevirmişdir.

Erkəyinə “oğlum”, dişisinə “qızım” deyilən, ölçülən, hə, hə, səhv eşitmədiniz, məhz ölçülən, əzizlənən bir itə xoşbəxt deməyimi ümidvaram ki, qəribliyə salmayacaqsınız. Özümün qəribliyə, qürbətə düşməyim azmış kimi, sözümün də qəribliyə düşməsini heç istəmirəm.

... Avropada it həyatının qibtə olunacaq səviyyəsi fonunda hər gün aclıqla üz-üzə qalan bir milyarddan çox insanın həyat səviyyəsindən qat-qat yüksəkdir, daha təhlükəsizdir...

**Afiq MUXTAROĞLU**

Niderlant Krallığı

# DÖVLƏT MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏRİ PULSUZ HAZIRLAYACAQ – TƏHSİL NAZİRLİYİ YENİ PROQRAM TƏQDİM EDİB



Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi yeni "Milli Müəllim Məktəbi" proqramı təqdim edib. Proqram müəllim olmaq istəyən və çalışan təcrübəçi müəllimlərə yardım və daha çox dəstək olmağı nəzərdə tutur.

Proqramla bağlı təhsil nazirinin müavini İrina Abuladze və Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin direktoru Berika Şukakidze brifinq keçirib.

"Geniş islahatın əsas məsələsi müəllimlərin şəraitini yaxşılaşdırmaq, müəllim peşəsinin dəyərləndirilməsi və tanınması, müəllimlərin peşəkar inkişafı üçün çoxtərəfli imkanların yaradılmasıdır. İslahat çərçivəsində nazirlik var gücünü sərf edəcək ki, yeni müəllimlərə, eləcə də çalışan təcrübəçi müəllimlərə daha çox inkişaf etməkdə və statusunu yüksəltməkdə dəstək olsun. Son bir neçə ay ərzində elan edilən yeniliklərin nəticəsi olaraq bu il artıq ikinci dəfə kompetensiyanın təsdiqlənməsi imtahanına olduqca yüksək sayda çalışan və müəllim olmaq istəyi olanlar qeydiyyat olub. Bu isə müəllimlərin prestijinin, əmək haqqının artmasının və reformanın müxtəlif istiqamətlərinin nəticəsidir.

Təhsil reformasının əsas məqsədi şəhər və kənd məktəblərində keyfiyyətli təhsilin təmin edilməsidir. İxtisaslı müəllim və keyfiyyətli təhsil bütün ictimai məktəblər üçün bərabər şəkildə əlçatan olmalıdır.

Yeni proqram kiçik kontingentli məktəblərin təhsil keyfiyyətinin sürətli artması üçün müəllimlərin xüsusi fənlər və pedaqoji bacarıqlarla hazırlanmasına imkan verir.

Hazırlanmış müəllimlər konkret region-bələdiyyələr və məktəblər üçün hazırlanacaqlar, peşəkar inkişafda dəstək alacaqlar və əmək haqqı əlavəsi alacaqlar.

Bununla yanaşı, proqram imkan yaradır ki, hazırlanmış müəllimlər fənn qrupunun, yaxud oxşar fənlər üzrə birdən çox fənn tədris etsinlər", - nazirlikdən bildiriblər.

**Müəllimlər sonrakı fənlər üzrə hazırlanacaq:**

1. Fizika, riyaziyyat, texnologiyalar.
2. Biologiya və kimya.
3. Təsviri və tətbiqi incəsənət.
4. Tarix, coğrafiya, vətəndaş təhsili.
5. Başlanğıc təhsil (gürcü dili, riyaziyyat, təbiətşünaslıq).

**İştirakçılar həmçinin gürcü dili və ədəbiyyatı və bədən tərbiyəsi üzrə hazırlanacaqlar.**

## MÜƏLLİM OLMAQ İSTƏYƏNLƏR VƏ TƏCRÜBƏÇİ PEDAQOQLAR ÜÇÜN PULSUZ HAZIRLIQ PROQRAMINA QEYDİYYAT BAŞLAYIB

"Milli Müəllim Məktəbi" müəllim olmaq istəyən şəxslər və təcrübəçi müəllimlər üçün pulsuz hazırlıq proqramına qeydiyyatı oktyabrın 11-dən başlayıb və oktyabrın 20-nə kimi davam edəcək. Qeydiyyatdan keçmək Müəllimlər Evinin veb-səhifəsində mümkündür.

"Milli Müəllim Məktəbi" 2019-cu ildə 2000-ə qədər müəllim olmaq istəyənləri pulsuz hazırlayacaq.

Məktəbdə dərslər noyabrın 1-dən başlayacaq. Dərslər həftədə üç dəfə olmaqla (cümə, şənbə və bazar günləri) rayon mərkəzlərində və böyük şəhər məktəblərində yüksək ixtisaslı peşəkarlar tərəfindən keçiriləcək. Bir fənn üzrə hazırlıq proqramı iki ay davam edəcək. Hər kursun sonunda dinləyicilər məktəbdə yerli müəllimin rəhbərliyi ilə pedaqoji təcrübə keçəcəklər.

Proqram iştirakçıları müəllim çatışmamazlığı olan mümkün vakant yerlərlə əvvəlcədən tanış olacaqlar.

"Milli Müəllim Məktəbinin" məzunları məktəblərə "axtaran" olaraq daxil olacaqlar və "axtaran" çərçivəsində məsafəli tədris kursu keçəcəklər, fənn kompetensiyasını təsdiq etdikdən sonra isə baş müəllim statusu qazanacaqlar.

"Milli Müəllim Məktəbinə" qəbul olmaq üçün **www.tpdc.ge** səhifəsində qeydiyyat olmaq, səhifədə fənn üzrə baza biliyini yoxlamaq üçün testdən keçmək lazımdır.

**Müəllim kompetensiyasını təsdiq edən fənn imtahanında 40%-lik maneəni aşmış aplikantlar testi keçmək öhdəliyindən azaddırlar.**

**Qeydiyyat üçün lazımdır:**

1. Şəxsiyyəti təsdiq edən sənəd (PDF və ya JPG formatda).
2. Ali təhsili təsdiq edən sənəd (PDF və ya JPG formatda).
3. Müəllimlik imtahanını təsdiq edən, yaxud statusu təsdiq edən sertifikat (varsa) (PDF və ya JPG formatda).

## 2020-Cİ İLİN BÜDCƏ LAYİHƏSİ İLƏ MƏKTƏB VƏ BAĞÇA MÜƏLLİMLƏRİNİN ƏMƏK HAQQI ARTIR



Parlamentin İdman və Gənclərin İşi və Təhsil, Elm və Mədəniyyət Komitələrinin birləşmiş iclasında maliyyə nazirinin müavini Giorgi Kakauridze Gürcüstanın 2020-ci ilin dövlət büdcəsi layihəsini təqdim edib.

Nazir müavini komitə üzvlərini maliyyələşdirmənin artırılması planlaşdırılan istiqamətlərlə tanış edib. Onun məlumatına görə, 2020-ci ilin büdcəsində sosial hissənin artması ilə pensiyanın artması, pedaqoqların, bağça müəllimlərinin, DİN əməkdaşlarının və təcili yardım və kənd həkimlərinin əmək haqqının artması nəzərdə tutulub.

**2020-ci ildə Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi üçün 1 636 000 milyon larinin ayrılması planlaşdırılır. Bu məbləğ idman və gənclər istiqamətində belə bölünəcək:**

- Kütləvi və yüksək uğurlara nail olunacaq idmanın inkişafı və məşhurlaşdırılması – 130.4 milyon lari;
- Mədəniyyət və idman xadimlərinin sosial müdafiəsi və dəstək tədbirləri – 21,120 milyon lari;
- İdmanda investisiyalara və infrastruktur layihələrinə dəstək – 10 milyon lari;
- İncəsənət və idman müəssisələrinə dəstək – 6.780 milyon lari;
- Gənclər Agentliyi – 5 milyon lari.

## 3 İLLİK BAKALAVR VƏ 1 İLLİK MAQİSTRATURA TƏDRİS PROQRAMLARININ HAZIRLANMASI QAYDASI TƏSDİQLƏNİB

Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvilinin sərəncamı ilə 3 illik bakalavr və 1 illik maqistratura tədris proqramlarının hazırlanması qaydası təsdiqlənib.

Nazirin 2019-cu ilin 30 sentyabrına olan sərəncamında deyilir:

"Bakalavr tədris proqramının (ən az 180 kreditdən ibarət) və maqistratura tədris proqramının (ən az 60 kreditdən ibarət) hazırlanması qaydası təsdiqlənsin".

Nazirliyin müəyyən istiqamətlərdə bakalavr və maqistratura proqramlarının müddətini azaltması ilə bağlı təşəbbüs Mixeil Batiaşvilidən əvvəlki nazirin dövründə irəli sürülmüşdü. Təhsil nazirinin müavini İrina Abuladze ötən il bildirmişdir ki, bakalavr pilləsinin 3 ilə və maqistratura pilləsinin 1 ilə qədər azaldılması müəyyən edilib, ancaq qüvvəyə minəcəyi vaxt məlum deyil.

Bu qaydanın qüvvəyə minməsi ilə bağlı vəziyyət indi də dəyişməz olaraq qalır. Bununla bağlı nazir müavini fikir bildirib ki, məsələnin müzakirəsi yenə iş prosesindədir və hələ ki, konkret vaxt müəyyən deyil.

Məlum olduğu kimi, hazırda bakalavr tədris proqramını uğurla başa vurması üçün tələbəyə ən az 240 kredit, maqistratura üçün isə 120 kredit toplamaq lazımdır. Nazirin yeni sərəncamı isə ən az 180 kreditdən ibarət bakalavr tədris proqramını və ən az 60 kreditdən ibarət maqistratura proqramını, onun hazırlanma qaydalarını, proqramın komponentlərini və kreditlərin bölünməsi haqqında tənzimləmələri müəyyənləşdirir.

Qaydada yazılıb:

Sərəncamın əlavəsinə əsasən, bu qaydanın qüvvəyə minməsi Gürcüstan qanunvericiliyi ilə nəzərə alınmış tənzimlənən akademik ali təhsil proqramlarına aid deyil.

Maddə 2

Bakalavr tədris proqramının hazırlanması, onun komponentləri və kreditlərinin bölünməsi:

1. Ən az 180 kreditdən ibarət olan bakalavr tədris proqramı və ən az 180 kreditdən ibarət bədii yaradıcılığın ilk pilləsinin ali təhsil proqramı yalnız Gürcüstan ali təhsil müəssisələri və xarici ölkə qanunvericiliyinə müvafiq olaraq tanınmış ali təhsil müəssisələri tərəfindən birgə "Ali təhsil haqqında" Gürcüstan qanunu ilə nəzərdə tutulmuş qayda ilə hazırlana bilər.

2. Bədii yaradıcılığın birinci pilləsinin ali təhsil proqramının (ən az 180 kreditdən ibarət) həyata keçirilməsi, eləcə də Gürcüstanın ali təhsil müəssisələri tərəfindən müştəqil şəkildə bu maddənin 3-cü və 4-cü bəndləri ilə müəyyən edilmiş şərtləri qorumaqla mümkündür.

3. Bədii yaradıcılığın birinci pilləsinin ali təhsil proqramının (ən az 180 kreditdən ibarət) bu maddənin birinci bəndi ilə müəyyən edilmiş qayda ilə həyata keçirilməməsi növbəti prinsiplə mümkün ola bilər:

a) Əsas tədris sahəsinin müvafiq məzmunlu tədris kursları/fənlər/modullar (ən az 120 kredit həcmində) və azad komponentlər;

b) Əsas tədris sahəsinin müvafiq məzmunlu tədris kursları/fənlər/modullar (ən azı 120 kredit həcmində), əlavə proqram (ən az 30 və ən çox 60 kredit)/ əlavə proqramlar və azad komponentlər;

c) Əsas tədris sahəsinin müvafiq məzmunlu tədris kursları/fənlər/modullar (ən az 120 kredit həcmində) və əlavə proqram (ən az 30 və ən çox 60 kredit)/ əlavə proqramlar.

4. Bu maddənin 2-ci bəndi ilə müəyyən edilməş bədii yaradıcılığın ali təhsil üzrə birinci pilləsinin tədris proqramına yalnız təhsil müəssisəsində avtorizasiya və ya akkreditasiya rejimində artıq həyata keçirilən müvafiq tədris sahəsinin ali təhsil proqramı/proqramlarının əlavə edilməsi mümkündür.

5. Bu maddənin 1-ci bəndi ilə nəzərdə tutulmuş proqramlara qəbul olmaq "Ali təhsil haqqında" Gürcüstan qanunu ilə müəyyən edilmiş vahid ali təhsil proqramlarına qəbul olmaq qaydasına əsasən olur, bu maddənin 2-ci bəndi ilə nəzərdə tutulmuş proqrama qəbul olmaq isə "Ali təhsil haqqında" Gürcüstan qanunu ilə müəyyən edilmiş akademik ali təhsilin birinci pilləsinə qəbul olmaq qaydasına uyğun olur.

Maddə 3. Maqistratura təhsil proqramının hazırlanması və qəbul olunmanın ön şərti

1. Ən az 60 kreditdən ibarət olan maqistratura üzrə təhsil proqramının hazırlanması və həyata keçirilməsi yalnız biznesin idarəsi/idarə sahəsində maqistratura (EMBA) ixtisasının qazanılması məqsədləri üçün mümkündür.

2. Bu maddənin 1-ci bəndi ilə nəzərdə tutulmuş proqrama qəbul olunmanın ön şərti bakalavr, yaxud ona bərabər akademik dərəcənin olması və idarə/idarə edilməsi sahəsində ən az 5 illik peşəkar təcrübədir. Bu proqrama qəbul olunma qaydası və şərtlərini müvafiq ali təhsil müəssisəsi müəyyən edir.

3. Bu maddənin birinci bəndi ilə nəzərdə tutulmuş proqramı keçmək akademik ali təhsilin üçüncü pilləsində təhsilin davam etdirilməsi imkanını yaratmır.

Səhifəni hazırladı: **Aynurə Əliyeva**

# QURBAN SİNDROMU



May ayında xəstəxanada praktikada olanda təcili yardımla reanimasiyaya ağır vəziyyətdə üç yaşlı uşaq gətirdilər. Uşağın anası və nənəsi dəhlizdən içəri daxil olmaq istəyirdilər ki, həkim onlara gürcü dilində buna icazə olmadığını deyirdi. Gənc qız və yaşlı qadın isə gürcü dilində başa düşmürdülər. Həkim məni çağırıb getdi. Mən Azərbaycan dilində içəri girməyə hələ icazə olmadığını, 1-2 saata uşağın yanına buraxılacaqlarını, gözləməli olacaqlarını onlara izah etdim. Yaşlı qadın Azərbaycan dilində danışdığımı eşidəndə gözləri parıldadı, qız isə yorğun təbəssümlə gözlərimə baxıb soruşdu:

- Azərbaycanlısan?
- Hə.
- Neçə yaşındasan?
- 21. Bəs sən?
- 20.
- Həkimsən?
- Yox, tələbəyəm.

Qız kədərli təbəssümlə susdu. Həmin an onun günəşdən yanmış üzünə, yorğun gözlərinə və ağır iş görməkdən kobudlaşmış əllərinə fikir verdim.

Təxminən iki saatdan sonra uşağın yatdığı otağa daxil oldular. Nənə uşağı görəndə ağlamağa başladı.

Cavan ana da çarpayının kənarında oturub ağladı. Özü hələ uşaq olduğu halda uşağına ağlamağına ağladı. 16 yaşında ağ don geyinib və 17 yaşında qollarında bala tutmağına ağladı. Həyatında əskik olan gülüşlərinə, çatdırıb oynaya bilmədiyi oyunlarına və özü uşaqkən böyük həyatı yaşamağına ağladı. "Boranlı" günlərinə ağladı. Mən isə o qıza baxaraq, onun içində ölmüş xəyallarına, arzularına ağladım. Qurban adıyla doğulmağına ağladım.

Qız bu qurbanlığı ilə barışmışdı. Halına və yorğunluğuna etiraz etmək ağlına da gəlməyib heç. Çünki bizə etiraz etməyi öyrətməyiblər. Uşaq vaxtından bizə ancaq başqalarının xoşuna gəlməyi öyrədiblər. Ata 15 yaşında qızının belinə qırmızı lent bağlayıb gəlin köçürəndə etiraz etməyə qoymadılar, qohumlar desin ki, "Filankəsin elə ağıllı, sözə qulaq asan qızı var ki". Toydan sonra özümüzü yorulmaz bir məxluq  göstərməyə çalışdıq, qonşular desin ki, "Filankəsin elə qocaq gəlini var ki, bütün günü işləyir". Ər əl qaldıranda göz yaşlarımızı əllərimizlə silib, dişimizi canımıza sıxaraq özümüzü heç nə olmamış kimi apardıq, çünki bizə "döz" öyrətdilər, desinlər ki, "Filankəsin elə yaxşı arvadı var ki, ərinin qarşısında dinmir". Cavan yaşında ər dünyasını dəyişəndə bir ömür bədbəxtliyi seçib, qaralara bürünüb ona yas saxlamağı öyrətdilər, desinlər ki, "Filankəs bir ömür ərinə yas saxladi". Həyata uşaq gətirdik, özümüzü yandıraraq onun yoluna işıq olduq, çünki uşağımızın "anam həyatını mənə qurban etdi" deməyini istədik. Bizi "öldürən" biri ilə yaşamağı istəməyib ayrılmaq istəyəndə ətrafdakıların söz-söhbətindən qorxduq, nənələrimizin "əlinin xınası hələ getməyib" sözüylə barışıb yenə qurban olmağı seçdik. Ən önəmlisi də odur ki, bunun səhv olduğunu başa düşən ətrafdakı böyüklər dinməz durmağı tərcih etdilər. Canımıza, qanımıza sendi qurban sindromu və bu sindromdan heç yaxamızı qurtarmağa hünərimiz yetmədi, bu sindromu yenənlərə isə alçatmaz bir heyralıqla baxdıq.

Bizə hamıya sevgiylə rəftar etməyi öyrətdilər və hamını sevməyə hazır olduğumuzda, özümüzü sevməyi heç yadımıza salmadılar. Özümüzü öz sevgimizdən məhrum etdik. Özümüzü sevməyi unutduğumuz üçün, qurban mövqeyini seçdiyimiz üçün həmişə sınmış, incimiş  və əzilmiş qaldıq.

Etiraz etməyi, narazılığımızı bildirməyi öyrəşək! İlk öncə özümüzü sevməyi öyrəşək!

*Şənhəyat Elmanqızı*
*İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin*
*Tibb fakültəsinin tələbəsi*

## MÜƏLLİMLƏRİN HAZIRLANMASININ 60 KREDİTLİK PROQRAMI ÜÇÜN DÖVLƏT QRANTLA 820 YER MALİYYƏLƏŞDİRİB – UNİVERSİTETLƏRİN SİYAHISI

Müəllimliyə hazırlıq üzrə tədris proqramına qəbul olmuş şəxs üçün "Dövlət tədris qrantının verilməsi qaydası"na dəyişiklik daxil edilib.

Təhsil, elm, mədəniyyət və idman nazirinin sərəncamı ilə ali təhsil müəssisələrinə qəbul olmuş şəxslərə qrant yerlərin sayına əsasən ayrılıb.

Belə ki, ümumilikdə dövlət 18 universiteti maliyyələşdirir. Maliyyələşdirilən yerlərin sayı 820 təşkil edir:

| №. | ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ | Yerlərin sayı |
|---|---|---|
| 1 | İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti | 80 |
| 2 | İlia Dövlət Universiteti | 130 |
| 3 | Akaki Tsereteli adına Dövlət Universiteti | 120 |
| 4 | Şota Rustaveli adına Batumi Dövlət Universiteti | 50 |
| 5 | Suxumi Dövlət Universiteti | 30 |
| 6 | Yakob Qoqebaşvili adına Telavi Dövlət Universiteti | 40 |
| 7 | Qori Dövlət Universiteti | 35 |
| 8 | Gürcüstan Universiteti | 10 |
| 9 | Samtsxe-Cavaxeti Dövlət Universiteti | 70 |
| 10 | Qara Dəniz Beynəlxalq Universiteti | 20 |
| 11 | Vano Saracişvili adına Tbilisi Dövlət Konservatoriyası | 5 |
| 12 | Şərqi Avropa Universiteti | 10 |
| 13 | Batumi İncəsənət Tədris Universiteti | 5 |
| 14 | Gürcüstan Patriarxlığının müqəddəs Tbel Abuseridze adına Tədris Universiteti | 35 |
| 15 | Şota Mesxia adına Zuqdidi Dövlət Tədris Universiteti | 30 |
| 16 | Gürcüstan Patriarxlığının müqəddəs Andria adına Gürcü Universiteti | 50 |
| 17 | Gürcüstan Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Tədris Universiteti | 70 |
| 18 | Avropa Universiteti | 30 |

## QARDABANİLİ GƏNC "FƏXRİ VƏTƏNDAŞ" ADINA LAYİQ GÖRÜLÜB

Qardabani bələdiyyəsinin Aşağı Kəpəkçi kənd sakini Kəmalə Məmmədova Qardabani rayonunun "Fəxri vətəndaşı" adına layiq görülüb. Bu adı ona oktyabrın 4-də qeyd olunan "Qardabnoba" bayramında Kvemo Kartli qubernatoru Şota Rexviaşvili təqdim edib. Kəmalə Məmmədovaya fəxri fərman və simvolik hədiyyə də verilib.

Qeyd edək ki, K.Məmmədova Gürcüstanın Texniki Universitetində biznes ixtisası üzrə təhsil alır. 2009-cu ildən karate ilə məşğul olmağa başlayan Kəmalə iki ay sonra Gürcüstan çempionu olur. Müxtəlif yarışlarda iştirak edən idmançı üçqat Gürcüstan çempionudur. 2017-ci ilin oktyabrında Barselonada keçirilən yarışda birincilik əldə edərək kyokuşin karate üzrə Avropa çempionu olur. Qara kəmər sahibi olan gənc idmançı Gürcüstanın kyokuşin karate üzrə milli komandasının üzvüdür.

K.Məmmədova "Yeni YOL"a bildirib ki, hazırda 2020-ci ilin aprel ayında keçiriləcək Avropa çempionatına hazırlaşır.



"Bir insanın zəhmətinin qarşılığını görməkdən gözəl hiss ola bilməz. "Fəxri vətəndaş" adını bu günə qədər çəkdiyim zəhmətin qarşılığında aldım", - deyən Kəmalə "Yeni YOL"un "Fəxri vətəndaş" olmaq daha məsuliyyətlidir, yoxsa çempion olmaq sualına: "Hər ikisi. Fəxri vətəndaşlığı çempionluğa görə veriblər. Hər iki tutulu qoruyub saxlamaq lazımdır. İllər ərzində bu ada layiqli davam etmək lazımdır" cavabını verdi.

"Yeni YOL" qəzeti adından gənc idmançıya təhsilində, gələcək yarışlarında, karyerasında, həyatında bol-bol uğurlar diləyirik.

## KVEMO KARTLİ QUBERNATORU "MİLLİ MÜƏLLİM MÜKAFATI"NIN QALİBİ İLƏ GÖRÜŞÜB



Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, onun müavini Kaxa Koberidze və Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin rəhbəri Berika Şukakidze "Milli Müəllim Mükafatı"nın qalibi Giorgi Çauçidze və ən yaxşı beşliyə daxil olan müəllimlərlə görüşüb.

Qubernator Giorgi Çauçidze və Tamar Adamianı qazandığı uğura görə şəxsən təbrik edib, onlara simvolik hədiyyələr verib və təhsil sahəsində olan yeniliklər və problemlərdən danışıb.

Qeyd edək ki, bu il "Milli Müəllim Mükafatı"nın sahibi Marneulinin 2 nömrəli ictimai məktəbinin gürcü dili ikinci dil kimi və tarix müəllimi Giorgi Çauçidze seçilib. Ən yaxşı beşliyə Dmanisi bələdiyyəsinin Maşavera kənd məktəbində təsviri və tətbiqi incəsənət fənni üzrə pedaqoq Tamar Adamia , onluğa isə Bolnisi bələdiyyəsinin Kvemo Arkevani ictimai məktəbinin gürcü dili ikinci dil kimi və gürcü dili və ədəbiyyatı fənni üzrə müəllimi Laura Qotiaşvili düşüb.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 OKTYABR 2019-CU İL/ №019 (99)

# Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET ეენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## MİLLİ AZLIQLARDAN OLAN GƏNCLƏR ÜÇÜN İŞ TƏCRÜBƏ PROQRAMI ELAN OLUNUB




Milli azlıqlardan olan gənclər üçün dövlət qurumlarında növbəti iş təcrübə proqramı elan olunub. Proqramdan "1+4" proqramı üzrə 3 və ya 4-cü kursda təhsil alan, magistr və məzun olan azərbaycanlı, erməni, abxaz və osetin gənclər yararlana biləcəklər.

Proqram Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvilinin təşəbbüsü, USAID və Gürcüstanın Birləşmiş Millətlər Assosiasiyasının dəstəyi ilə reallaşacaq.

Layihə çərçivəsində Gürcüstanın dövlət qurumlarında 500 vakant yer təqdim olunub. Vakansiyalar www.hr.gov.ge saytında yerləşdirilib. İş təcrübəsində maraqlı olan gənclərdən müraciətlər oktyabrın 22-dək qəbul olunacaq.

Müsabiqə əsasında seçiləcək gənclərə dövlət, yerli idarəetmə və ictimai hüquqi şəxs olan orqanlarda 1 aydan 6 ayadək iş təcrübəsi təklif olunacaq.

Qeyd edək ki, ölkədə milli azlıqları təmsil edən gənclər üçün dövlət idarələrində iş təcrübəsi proqramı 2017-ci ildən etibarən həyata keçirilir. Proqramın məqsədi Gürcüstanda yaşayan etnik azlıqların işlə təminatı perspektivlərinin yaxşılaşdırılması və onların vətəndaş inteqrasiyası prosesində iştirakına dəstək olmaqdır.

## TƏBİİ QAZIN DAXİLİ ŞƏBƏKƏSİNƏ NƏZARƏT MƏCBURİ OLACAQ VƏ ƏHALİ BUNUN ÜÇÜN PUL ÖDƏMƏLİ OLACAQ



Təbii qazın daxili şəbəkəsinin yoxlanması məcburi olacaq və bunun üçün əhali müvafiq məbləğ ödəyəcək.

Bu haqda "Məhsulun təhlükəsizliyi və azad dövriyyə məcəllәsi"nə dəyişikliklərin daxil edilməsi planlaşdırılır. Müvafiq qanun layihəsi artıq hazırlanıb.

Sənədə əsasən, qanun layihəsinin təcili qayda ilə müzakirə olunma səbəbi təbii qaz istifadəçiləri tərəfindən daxili şəbəkənin səhv idarəsi zamanı yaranan bədbəxt hadisələrin qarşısının alınmasıdır.

Layihədə qeyd olunub ki, fərdi istifadəçi təbii qazdan akkreditasiya olunmuş müfəttişlik orqanına xidmət haqqı ödəməli olacaq. Akkreditasiya olunmuş müfəttişlik orqanları isə fərdi qaz istifadəçilərinin daxili qaz şəbəkəsinə nəzarət xidməti üçün gəlir əldə edəcəklər.

Qanun layihəsinin qəbul edilməsi öz növbəsində dövlət büdcəsinin gəlir hissəsinə də təsir göstərəcək. Çünki akkreditasiyadan keçmiş müfəttişlik orqanı qaz istifadəçilərinin daxili şəbəkəsinə nəzarət etdikləri xidmət üçün aldıqları gəlirlərə görə qanunvericiliklə müəyyən edilmiş vergi ödəyəcəklər.

## TBİLİSİ 2021-Cİ İLİN DÜNYA KİTAB PAYTAXTI ELAN OLUNUB



YUNESKO-nun baş direktoru Odri Azule

Tbilisi şəhərini 2021-ci ilin Dünya Kitab Paytaxtı elan edib. Qərar Dünya Kitab Paytaxtı Məsləhət Komitəsinin tövsiyəsi əsasında qəbul olunub.

Dünya Kitab Paytaxtı elan olunan şəhərlərdə il ərzində kitab və mütaliənin təbliğ olunması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. 2019-cu ildə bu titulu Kuala Lumpur şəhəri daşıyır. 2020-ci ildə isə Dünya Kitab Paytaxtı Şarjah şəhəri olacaq.

Qeyd edək ki, YUNESKO Dünya Kitab Paytaxtı nominasiyasını 2001-ci ildən etibarən elan edir.

## TANINMIŞ BƏSTƏKAR GİA KANÇELİ VƏFAT EDİB



Məşhur bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Gia Kançeli oktyabrın 2-si 84 yaşında dünyasını dəyişib. G.Kançeli son aylar ürəyində yaranan problemlərlə bağlı xəstəxanada müalicə olunurmuş.

Qeyd edək ki, G.Kançeli 70-dən çox filmə musiqi bəstələyib. Onun musiqi bəstələdiyi ən yaxşı filmlər arasında "Kin-dza-dza" və "Mimino" filmləri yer alıb.

"Mikelancelonun xatirəsi"nə adlı simfoniyası G.Kançeliyə dünya şöhrəti qazandırıb. Məşhur bəstəkar Rustaveli Teatrı ilə sıx əməkdaşlıq edib və rejissor Robert Sturuanın ən yaxşı tamaşalarına musiqilər bəstələyib.

Bəstəkar rejissor Vaqif Mustafayevin "Milli bomba" filminə də musiqi bəstələyib.

G.Kançeli Gürcüstanın dövlət mükafatı və "Şərəf" ordeni mükafatına layiq görülüb. O, həmçinin Tbilisinin fəxri vətəndaşı adını da daşıyıb.

## KVEMO KARTLİDƏ 449 NƏFƏR QİÇSƏ YOLUXUB



Gürcüstanda 7949 QİÇS-ə yoluxma halı qeydə alınıb. Bu barədə Gürcüstanın İnfeksiya patologiyası, QİÇS və Kliniki immunologiya üzrə Elmi-Praktik Mərkəzindən bildirilib.

Bu ilin oktyabrın 7-nə olan məlumata əsasən, xəstəliyə yoluxanların 5961-i kişi, 1988-si isə qadındır. Pasiyentlərin böyük əksəriyyətini 29-40 yaş qrupuna daxil olan şəxslər təşkil edir. QİÇS 4184 xəstədə inkişaf edib, 1611 nəfər isə ölüb.

HİV infeksiyasına yoluxma hallarının böyük əksəriyyətinə hetero-cinsi əlaqə (47,8%) və narkotik vasitələrdən istifadə (38,5%) səbəb olub.

QİÇS-ə yoluxma hallarının böyük əksəriyyəti paytaxt Tbilisidə qeydə alınıb. Şəhərdə 2842 QİÇS daşıyıcısı var. Kvemo Kartli bölgəsində bu xəstəliyə 449 nəfər yoluxub.

## 112-YƏ ƏYLƏNCƏ MƏQSƏDİ İLƏ ZƏNG EDƏN ŞAGİRDLƏRİN VALİDEYNLƏRİ CƏRİMƏLƏNƏCƏKLƏR




112 xidmətinə əyləncə məqsədi ilə zəng edərək yalan çağırış edən şagirdlərin valideynləri, yaxud qanuni nümayəndələri 100 laridən 2500 lariyə qədər cərimələnəcəklər. Bununla bağlı məktəblərə nazirlikdən tapşırıq verilib, valideynlərə xəbərdarlıq edilib. Həmçinin məktəblərdə şagirdlərə broşürlar da paylanıb.

"Yadda saxla, sənin və operatorun söhbəti yazılır! 112-yə yalandan, yaxud əylənmək məqsədi ilə zəng vurmaq ciddi şəkildə qadağandır və qanunla cəzalandırılır! 112-yə əylənmək məqsədi ilə zəng vurduğun halda valideyn və ya uşağın qanuni nümayəndəsi 100 laridən 2500 lariyə qədər məbləğlə cərimələnəcək.

Xatırladaq ki, Təcili Yardım Xidmətinin vahid nömrəsindən – 112-dən polis, təcili-tibbi yardım və yanğınsöndürmə xidmətlərinin çağırılması məqsədi ilə istifadə olunur", - broşürlarda yazılıb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalık ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.